**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.196

**BƏXTİYAR YUSUFOV ***

# PLENER RƏNGKARLIĞINDA KOMPOZİSİYA

*Plener rəngkarlığı geniş mənada rəssamların istifadə etdiyi bir üslub və bir metoddur. Bu üslub rəssamların təbiətlə birbaşa bağlılığına, təbiəti, onun dəyişikliklərini, açıq havada işıq oyunlarını və s. bədii sənət əsərlərində təsvirinə əsaslanır. Plener metodda yalnız görüntü əsas olmur, rəssamların təbiətlə ruhi-mənəvi yöndə əlaqəsi də müəyyən rol oynayır. Plener metodunda aparıcı olan təbii işıq və dəyişən hava şəraiti rəssamın əsərinə özünəməxsus bir canlılıq gətirərək tamaşaçılarda təbii bir təəssürat yaradır. Plenerdə işin əsas mahiyyəti rəssamın təsvir etdiyi obyektlə birbaşa təmas qurmasıdır, yəni rəssam təbiəti yaradacaqsa iş yeri kimi həmin təbiəti seçməlidir, təbiət mənzərəsini, işığı və ya rəngləri birbaşa görərək onları əsərinə köçürməlidir. Bu, ənənəvi rəssamlıqdan onunla fərqlənir ki, emalatxanada rəssamlar adətən əvvəlcədən çəkilmiş eskizlərə və ya beyinlərindəki təxəyyülə, yaddaşa əsaslanırlar. Plener rəssamlığı fırça ustalarına improvizə üçün də geniş imkanlar açır. Belə ki, ani təbiət dəyişmələri, işıq oynamaları və s. baş verdikdə rəssamlar həmi anı tuta bilirlər. Bu zaman yaranan əsərlər daha təbii və fərqli olur. Bu gün də, plener rəssamlığı həm peşəkar sənətkarlar, həm də həvəskar rəssamlar üçün populyar bir fəaliyyət növüdür. Açıq havada çalışmaq rəssamların yalnız sənətinə deyil, həm də onun ətraf mühitlə, təbiətlə əlaqəsinə də müsbət təsir göstərir.*

***Açar sözlər:*** *Rəng, rəssam, kompozisiya, təbiət, plener, obraz.*

Plenerin müsbət xüsusiyyətlərindən biri odur ki, rəssam mövzu axtarışı istiqamətində heç bir çətinliklə üzləşmir. Çünki təbiət ona hər şeyi səxavətlə təqdim edir. Yəni yaradıcılıq fəaliyyəti üçün hazırlıq işləri görüb təbiət qoynuna çıxmaq yetərlidir. Amma uğurlu rəngkarlıq nümunəsinin ərsəyə gəlməsi üçün kompozisiyanın ümumi qanunauyğunluqlarını bilmək zəruridir. Bilirik ki, istənilən sənət əsəri yaradılarkən insan gözünün reallığı necə qəbul etdiyinə, yəni vizual qavrayış qanunlarına uyğun olaraq kompozisiya qurulur. Komposiziya (latınca compositio - düzülmə, birləşmə, qarşılaşdırma) əsərin skeletidir. Daha geniş desək, kompozisiya bir-biri ilə əlaqələndirilmiş komponentlərin fəzada düzgün yerləşdirilməsi, onların ölçülərinin və konfiqurasiyalarının düzgün nisbəti, hissələrin birləşməsi əsasında qurulmuş vahid bir bütövlükdə sənət əsərinin qurulması üsuludur. Plener kompozisiyasının axtarışı təbiətdə maraqlı bir motiv tapıldıqda başlayır. Fikrimizcə kompozisiya axtarışı açıq havada şəratində işləmək təcrübəsinin ən maraqlı məqamıdır.

Kompozisiya üsullarını zəif bilmək süjet seçimi zamanı təcrübəsiz rəssama çətinlik yarada bilər. Bu səbəbdən kompozisiya qurmaq üçün ümumi qaydalar xatırlanmalıdır. Çünki, kompozisiya və süjet bir-biri ilə sıx bağlıdır və işin bütün mərhələlərində mühüm rol oynayır.

Kompozisiya məkan və rəng mühitinin düzgün qurulmasının əsasını təşkil edir. Qeyd edək ki, bəzən açıq hava şəraitində ərsəyə gələn kompozisiyaların kortəbii olaraq qurulması əsərin canlılığını artırır və rəssamın səmimiyyətlə çatdırmağa çalışdığı əsas ideyanın ifadəliliyini kəskinləşdirir. Amma bilməliyik ki, açıq hava şəraitində çalışarkən kompozisiyanın qurulması üçün bir neçə ümumi qaydanı bilmək lazımdır. Bunlar kompozisiyanın bütövlüyünə nail olmaq, kompozisiya mərkəzinin tapılması, kompozisiyanın yeniliyi, kompozisiyanın ifadəliliyi və s.-dir. Bunlar aşağıda daha ətraflı şəkildə izah olunmuşdur.

Kompozisiyanın əsas qaydalarından biri süjet seçimi üçün təsvirin çərçivəyə salınması qaydasıdır.Təcrübəsiz bir rəssam üçün mövzu və süjet seçmək çox çətin ola bilər. Bunun üçün tam kompozisiya əldə etmək, qarşınızda açılan mənzərəni məhdudlaşdırmaq və üfüq xəttinin düzgün mövqeyinin seçilməsi üçün kağızdan kəsilmiş sadə çərçivə (vizör) köməkçi vasitə olacaqdır. Əlavə etmək lazımdır ki, bu texnikadan plener təcrübəsinə yeni başlayarkən istifadə etmək olar. İstədiyiniz səhnəni təbiəti vizör olmadan, göz ilə seçmək daha məqsədəuyğundur. Təsvir olunanın təxmini yerini bir səth üzərində təsəvvür edərək məkan planlarının konturlarını yüngülcə təsvir etmək lazımdır.

Plenerdə olarkən üfüq xəttinin yerini düzgün təyin etmək vacib amillərdəndir. Çünki üfüq xətti kompozisiyada olan bütün obyektləri özünə tabe edir (1, 34). Üfüq xəttinin düzgün təyin

edilməsi üçün baxış nöqtəsininin seçimi zamanı obyektlərin ən ifadəli göründüyü müxtəlif mövqelərdən bir neçə sürətli eskiz etmək faydalıdır. Məsələn, ağac təsvir olunubsa onun üfüqün hündürlüyündən asılı olaraq həcmi və silueti ətraflı şəkildə modelləşdirilir. Bu, ağacın quruluşunu, budaqlarının ritmini, ağac gövdəsinin yerlə əlaqəsini və s. başa düşməyə imkan verir. Bir qrup ağac eskizini çəkmək üçün həmin ağaclarla yer müstəvisinin böyük məkanı, eləcə də uzaq planlar arasındakı əlaqəni tapmaq lazımdır.Ağaclarla zəngin bir mənzərə çəkmək böyük bir məkanın köçürülməsini, yaşıllığın mənzərənin digər komponentləri – qayalıq, çay, memarlıq binaları və s. ilə birləşməsini tələb edir.

Açıq havada motiv axtararkən bədii-obrazlı tapşırıqlar qarşıya qoyulmalı və onların yaradıcı həll yolları axtarılmalıdır (2, 13). Burada əsas məqsəd rəssamın emosional reaksiyasını çatdırmaqdır.

Məlumdur ki, kainat, o cümlədən sakinləri ilə birlikdə dünyamız müəyyən qanunlara uyğun olaraq, vahid bir prinsipə və nizama tabedir. Burada xaosa və təsadüfə yer yoxdur. Təsviri məkanını quran rəssam fikrini ən dolğun şəkildə açmağa kömək edən bədii materiallardan və texnikalardan istifadə edərək, maddi dünyanın qurulduğu eyni qanunlara əməl edir. Rəssam obyektlərin səth üzərində yerləşməsini təsadüfi şəkildə tənzimləmir. Rəssam onları öz seçdiyi kompozisiyaya uyğun olaraq müəyyən bir quruluşa, ritmə, harmoniyaya tabe edir.

Kompozisiyanın qurulması üçün vacib olan qaydalardan biri təsvirin kompozisiya mərkəzinin, yəni tamaşaçının baxışının yönəldilməli olduğu əsərin əsas hissəsini müəyyən edilməsidir. Açıq havada işləyərkən rəssamın qarşıya qoyduğu bu tapşırıq fərqli xüsusiyyətlərə malik olur, çünki eskizdə kompozisiya mərkəzi həmişə aydın şəkildə ifadə olunmur.

Kompozisiya mərkəzi elə yerləşdirilməlidir ki, tamaşaçının baxışları ilk andan həmin yerdə cəmləşsin və bu baxışlar bütün əsəri "gəzdikdən" sonra yenidən bu nöqtəyə qayıtsın. Qeyd etdiyimiz kimi açıq hava şəraitində təsvir edilən mənzərələrdə kompozisiya mərkəzi çox zaman gözə çarpmayan şəkildə ifadə edilir, lakin biz bunu işıq və kölgə kontrastlarında, nisbətlərin ziddiyyətində, isti və soyuq koloritdə anlayırıq.

Rəssam bəzən çoxplanlı quruluşdan istifadə edərək kompozisiya mərkəzini ön plana çıxararaq, digər obyektləri arxa plana və ya əksinə yerləşdirərək fəzada dərinlik yarada bilər. Nəzərə almaq lazımdır ki, bu zaman əsas element məkan müstəvisində yeganə olmalıdır. Kompozisiya mərkəzini bəzən köməkçi obyektlərin hərəkət dinamikasını əsas olana doğru yönəltməklə və ya ikinci dərəcəli personajların baxışlarını əsas olana çevirməklə əldə edilir.Ritm kompozisiyanın mərkəzini müəyyən etməyə kömək edir və əsəri detallarla tamamlayır. Ritmi ağaclar, binalar, tikililər, hasarlar, dirəklər, məftillər və s. yarada bilər.

Kompozisiya mərkəzi çox zaman təzadlardan istifadə etməklə ifadə olunur. Kompozisiyada kontrast vacibdir. Kompozisiya o zaman maraqlıdır ki, onun hissələri arasında bir növ ziddiyyət olsun və onun köməyi ilə rəssam müxtəlif emosiyaları tamaşaçıya çatdıra bilsin. Kompozisiyanın ayrı-ayrı hissələri arasındakı kontrast ölçü, forma, ton və rəng fərqləri ilə ifadə edilə bilər. A.Kuincinin "Qürub" silsiləsində bu ziddiyyəti aydın görmək olar. Rəssam bu əsərlərdə təbiətdə mövcud olan rəngin gücünə yaxınlaşmağa çalışaraq, qürub zamanında real dünyanın romantik qavrayışını həm şübhəsiz bir həqiqət, həm də poetik bir obraz olacağı bədii münasibətləri əks etdirməyə çalışır. Qaralığın kəskin kontrastı, səmada sarı-qırmızı və yaşıl rənglərin intensivliyi əsasında qurulmuş tutqun, lakonik şəkildə həll edilmiş "Çöldə dəniz sahilində qürub" (1900-1910) adlı mənzərəsində A.Kuinci həqiqətən dramatik gərginliyə nail olmuşdur.

Kompozisiya mərkəzi portret əsərlərində də mühüm rola malikdir. Açıq havada işlənən portretlərdə səth üzərində ümumiləşdirilmiş kompozisiya mühiti yaradılmalıdır ki, burada təsvir olunan təbiət təcrid olunmasın, əksinə bədii obraz ətraf mühitə uyğunlaşsın. Plenerdə portret çəkmək bütün yaradıcılıq prosesinin müəyyən unikallığını tələb edir və tələbələri kompozisiyada yenilik axtarmağa istiqamətləndirir (3, 45). Plener portret rəssamlığında özünəməxsus yeri olan görkəmli rəssam İ.N.Kramskoy ən yaddaqalan plener portretlərindən biri olan "Naməlum" əsəri buna əyani misal ola bilər. Bu əsərdə Sankt-Peterburqun Nevski prospektində açıq vaqonda oturan gözəl və bir qədər təkəbbürlü qadını təsvir edilmişdir. İsgəndəriyyə teatrının qış mənzərəsi təbii fon rolunu oynayır və tamaşaçının diqqətini qızın qaranlıq, temperamentli üzünə yönəldir. Müəllif işıq-

kölgə, hava perspektivi və rəngin məziyyətlərindən istifadə edərək uğurlu kompozisiya mərkəzi yarada bilmişdir.

Bilirik ki, natürmort bədii tədrisdə aparıcı janrlardan biridir. Tələbələr sadə fərdi obyektlərdən başlayaraq mürəkkəb tematik natürmortlara qədər etüdlər edərək bədii yaradıcılıq üsullarını ardıcıl şəkildə öyrənirlər. Açıq havada natürmort çəkmək iki növ ola bilər: biri seçilmiş mövzuya uyğun tərtib edilmiş, digəri isə təbii, "təsadüfi". Natürmort müstəqil janr kimi ya da digər janrda olan əsərlərin tərkib hissəsi ola bilər.

Natürmort janrında da kompozisiyanın düzgün qurulması olduqca vacibdir (4, 2). Təcrübəsiz rəssam düşünür ki, uğurlu nəticə əldə etmək üçün mürəkkəb predmetləri (məsələn, mürəkkəb formalı vaza) təsvir etmək lazımdır.Amma bu düzgün olmayan baxışdır və müşahidə etmək qabiliyyətinin olmamasından xəbər verir. Qeyd edək ki, ən mürəkkəb olan sadə natürmortlardır. Çünki bəzən əsas fikri çatdırmaq onu təsvir etməkdən daha çətindir. İstənilən natürmort tematik olmalıdır, yəni hansısa məqsəd üçün qurulmalıdır və hansısa mövzunu açmalıdır. Natürmort təntənəli, lirik, dekorativ, soyuq, isti və s. ola bilər.

Plenerdə natürmort qurarkən artıq heç bir predmet olmamalıdır. Yəni təbiətdə çətin tapılan əşyaları açıq havada qurulan natürmortda qoymağa ehtiyac yoxdur. Məsələn, meyvələr, tərəvəzlər, qablar (küpə, çaynik və ya fincanlar), səbətlər, hətta musiqi alətləri təbiət fonunda olduqca ahəngdar görünəcəkdir. Burada əsas vəzifə düzgün kompozisiyada əlaqəsini tapmaqdır. Başqa sözlə, açıq havada təsvir edilən natürmort qapalı məkanda çəkilən natürmortdan daha yaradıcıdır. Plenerdə təsvir edilən natürmort artıq ölü təbiətin surəti deyil, rəssamın ideya və temperamentinin ifadəsidir.

Təbiət qoynunda natürmort tərtib etmək və onu ətraf mühitə inteqrasiya etmək çox vacibdir. Natürmortu hər tərəfdən baxa biləcək şəkildə qurmaq da lazımdır ki, tələbə istənilən bucağı seçə bilsin. Daha sonra isə burada əsas vəzifə kompozisiyada ton və rəng əlaqəsini tapmaqdır.

Kompozisiyanın əsərin quruluşuna görə 2 növü vardır – statik və dinamik (5, 45). Kompozisiyada statik və ya dinamikadan istifadə rəssama müəyyən təəssüratları – sakitlik, tarazlıq, sülh, əmin-amanlıq hissini və ya hərəkəti, həyəcanı çatdırmağa imkan verir. Əsərdə statika və dinamikanın yaradılması prinsipi obyektin bucağının şaquli və üfüqi istiqamətdən kənara çıxıb-çıxmamasına əsaslanır. Belə ki, təsvir edilən obyektlərdə nə qədər şaquli və üfüqi xətlər varsa, kompozisiya bir o qədər statik olur. Qeyd edək ki, kompozisiya mərkəzi bəzən dinamik quruluşa malik olur. Əsərdə bəzi hərəkətləri yerinə yetirən insan və heyvan fiqurlarının olması kompozisiyasını daha da canlandırır, diqqəti həmin nöqtəyə yönəldir. Açıq havada təsvir olunan eskizlərdə fiqurun plastikliyini və onun hərəkətini bir neçə xətlə çatdırmağa çalışmaq lazımdır. Bu zaman fiqur mənzərəni tamamlayaraq kompozisiyada əsas obyekt olmadığı halda ona dinamiklik verəcəkdir. Bu səbəbdən canlı fiqurların olması kompozisiyaya marağı artırır.

Statik və dinamik kompozisiyalarda bədii ifadəliliyə nail olmaq üçün simmetriya və asimmetriyadan istifadə olunur. Simmetriya və asimmetriya həm də rəssama öz ideyasının kətanda düzgün ifadə olunmasına, onun rəngkarlıq əsərinə çevrilməsinə, motivin əhval-ruhiyyəsini və vəziyyətini çatdırmağa kömək edən vasitələrdəndir.Əgər simmetrik kompozisiya dinclik, sükut, tarazlıq hissini ötürürsə, asimmetrik kompozisiya isə bunun tam əksinə hərəkət, gərginlik və narahatçılıq təəssüratı yaracaq.

Kompozisiyanın qurulması üçün vacib olan qaydalardan biri də eskiz hazırlayarkən məkan həllinin düzgün tapılmasıdır. Rəssamın plener yaradıcılığının mühüm vəzifələrindən biri də ərsəyə gələn rəngkarlıq əsərində mühiti, məkanı çatdırmaqdır. Plenerdə təsvir olunan rəngkarlıq nümunələrində məkan həllinin tapılması mənzərənin kompozisiyasında planların necə qurulacağını öyrənməkdən ibarətdir. Bu zaman belə bir sual yaranır - açıq havada eskizin çəkərkən ön plandan, yoxsa arxa plandan işə başlamaq daha məqsədəuyğundur? Bu təsvirdə nəyin aparıcı olmasından, yəni eskizin bütün tonallığının nəyə əsaslandığından asılıdır. Belə ola bilər ki, hər şeyin bədii leytmotivi məhz üfüqdə - göylə yerin qovşağında yerləşir. Bu halda, ilk növbədə bu münasibətləri, nisbətləri həll edərək daha sonra isə hər şeyi əlavə etmək lazımdır. Və yaxud eskiz elə qurula bilər ki, ön planda əsas yer, sonra isə mənzərənin digər məkanı olsun. Bu vəziyyətdə ilk plandan başlayın, qalan hər şeyi ona tabe edin.

Təcrübəsiz rəssamın əsas səhvlərindən biri tamaşaçı ilə mənzərənin üfüq xətti arasında "divar çəkmək"dir. Belə ki, tamaşaçının həmişə təsvir olunan obyektləri əhatə edən mühitin davamını təsəvvür etməyə çalışır. Bu səbəbdən mənzərənin planları arasında məsafə elə qurulmalıdır ki, kompozisiyada havadarlıq hissi yaransın. Kompozisiyanın məkan həllinin uğurla tətbiq olunduğu əsərlərdən biri impressionizm cərəyanının qabaqcıl nümayəndələrindən olan Klod Monenin "Gəzinti. Çətirli xanım"dır. Bu əsərin kompozisiyasında rəssam Argentöydə gəzintiyə çıxdığı küləkli yay günlərindən birində həyat yoldaşı Kamilla Mone və oğlu Janı təsvir etmişdir. Dərin mavi səmanın fonunda tamaşaçıya yuxarıdan baxan, əlində yaşıl çətir tutan və küləkdə niqabı dalğalanan ağ geyimli fiqur Madam Monedir. Bir az arxada dayanan, təxminən altı-yeddi yaşlarında olduğunu təxmin edə biləcəyimiz, papağı ilə günəşdən qorunan uşaq fiquru isə Klod Monenin yeganə oğlu Jan Monedir. Bir qədər mərkəzdən sağa doğru sürüşdürülmüş Madam Monenin baxışları və duruşu göstərir ki, o, birdən tamaşaçının varlığından xəbərdar olur, ona tərəf çevrilir, lakin yerində dayanmır və inandırıcı hərəkət illüziyası yaranır. Onun oğlu da tamaşaçıya diqqətlə baxaraq, təpənin arxasından yalnız beldən yuxarı görünür. Sənətkar bunu kompozisiyada səhnənin həcmini və dərinliyini yaratmaq məqsədilə edir. Əsərin aşağı nöqteyi-nəzərdən güclü perspektivi var və bu da fiqurların səma qarşısında siluetinin formalaşmasına səbəb olur. Düz xətt perspektivində aşağı bucaqdan təsvir edilmiş qadın fiqurunun səmaya doğru yerləşdirilməsi əsərin kompozisiyasına (bu xüsusiyyət K.Monenin 70-ci illərin ortalarında təsvir etdiyi digər kompozisiyalarına da xasdır) monumentallıq verir. Günəş və küləyin təsviri də kompozisiyadakı hərəkətə öz töhfəsini verir. Sağ tərəfdən gələn günəş işığı soldan əsən küləklə güclü kontrast yaradır.

Yaradıcılıq prosesində hər bir rəssam istər-istəməz əsərin tamlığı, dolğunluğu problemi ilə üzləşir. Uğurlu əsərin yaranması üçün vacib olan qaydalardan biri kompozisiyanın bütövlüyü, yəni bütün detallarının vahid kompozisiya mərkəzinə tabe olmasıdır.Rəssam kompozisiyada əsərin bütün detallarını bir bütövlükdə birləşdirə biləcək canlı konstruktiv prinsip yaradır.Əsərin özünəməxsusluğu və unikallığı onun ayrı-ayrı hissələrinin bir-biri ilə əlaqəli və vahid bütövlükdə birləşməsi, eləcə də bir fikrə tabe olmasıdır. Yalnız bu şəkildə yaranan əsərlər bütöv şəkildə qəbul edilir.

İstənilən formanın həcmi var və o predmetin quruluşunu anlamağa kömək edir. Plenerdə işləyərkən tələbələrə bir quruluş qurmağı və cisimlərin formasını başa düşməyi öyrədərkən, "rəsm çəkməyin həndəsi üsulu"nu əsas götürərək "ümumidən konkretə" və ya "sadədən mürəkkəbə" prinsipini rəhbər tutmaq lazımdır. Təbiətdən təsvir edərkən ümumiləşdirməyi bacarmaq, əsas olanı, ikinci dərəcəli və əhəmiyyətsizləri buraxaraq, əsas olanı görmək son dərəcə vacibdir (6, 45). Yəni öncə əsas obyektləri, daha sonra isə xırda və köməkçi detalaları təsvir etmək lazımdır.

Plenerdə işləyərkən kompozisiyanın yeniliyi və ifadəliliyi ilk növbədə rəssamın təsvir olunan motivi nə qədər hiss etməsindən, ondan nə qədər təsirləndiyindən asılıdır. Rəssam rəngkarlıq nümunəsi yaratdığı zaman əsərinin mövzusuna səmimiyyətlə yanaşdıqda və ona rəğbət bəslədikdə kompozisiyada yenilik olacaqdır, çünki gələcək əsərin orijinallığı rəssamın təbiətə emosional münasibəti ilə birbaşa bağlıdır.

Açıq havada kompozisiyasının qurulmasında nisbətlərin dəqiqliyi mühüm rol oynayır. Nisbət əlaqələri dedikdə kompozisiyanın bütün hissələri, o cümlədən obyektlərin bir-birinə mütənasibliyi nəzərdə tutulur. Nisbət əlaqələri səhv müəyyən edilərsə, kompozisiya qeyri-real görünəcəkdir. Ətrafdakı obyektləri bir-biri ilə müqayisə etməyi öyrənmək çox vacibdir.Ölçülərin, həcmlərin və məsafələrin müqayisəsi, onların arasında mütənasib əlaqənin tapılması hər bir rəssamı bütün yaradıcılığı boyu müşayiət edəcəkdir. Məhz buna görə də rəssam gözündən "pərgar və xətkeş kimi", yəni böyük dəqiqliklə istifadə etməyi öyrənməlidir.

Beləliklə, sözün geniş mənasında kompozisiya harmoniya və gözəlliyin dəyəridir. Təsviri sənətdə kompozisiya haqqında əldə edilən biliklərə əsaslanaraq yeni, unikal və orijinal əsərlər yaradılır.

## ƏDƏBİYYAT


1. Беда Г.В. Живопись и ее изобразительные средства. Учебник. – М.: Просвещение, 1977.
2. Волков И.И. Цвет в живописи. М.: Искусство, 1984.
3. Грабарь Й.Э. О колорите в живописи. «Юный художник», 1979.
4. Зайцев А.С. Наука о цвете и живопись. – М.: Искусство, 1986
5. Маслов Н.Я. Пленэр: Практика по изобразительному искусству. М.: Просвещение, 1984.
6. Смирнов Г.Б. Живопись. / Г.Б. Смирнов // М.: Просвещение, 1975. 143 с.



***Sənətşünaslıq üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının***
***"Akademik Rəngkarlıq" kafedrasının dosenti***
***E-mail: Yusubov_baxtiyar@yahoo.com***


**Bakhtiyar Yusufov**

## COMPOSITION IN PLEIN AIR PAINTING


Plein air painting is a style and a method used by artists in a broad sense. This style is based on the direct connection of artists with nature, their depiction of nature, its transformations, the play of light in the open air and other works of artistic art. In the plein air method, not only the image is the main one, but the connection of artists with nature in the spiritual and spiritual direction also plays a certain role. Leading in the plein air method, natural light and changing weather conditions bring a unique liveliness to the artist's work, creating a natural impression on the audience. The main essence of work on the plein air is that the artist has direct contact with the object he is depicting, that is, if the artist is going to create nature, he must choose that nature as his place of work, he must paint them in the work, seeing directly the landscape of nature, light or colors. It differs from traditional painting in that in the workshop, artists are usually based on pre-drawn sketches or imagination in their minds, memory. Plein air painting also opens great opportunities for brush masters to improvise. However, when sudden changes of nature and play of light occur, the artists are able to capture the same moment. At this time, the created works become more natural and different. Even today, plein air painting is a popular form of activity for both professional artists and amateur artists. Working in the open air has a positive effect not only on the art of artists, but also on its relationship with the environment and nature.


**Keywords:** *Color, artist, composition, nature, plein air, image.*

**Бахтияр Юсуфов**

## КОМПОЗИЦИЯ В ПЛЕНЭРНОЙ ЖИВОПИСИ


Пленэрная живопись в широком смысле представляет собой стиль и метод, к которому прибегают художники. Этот стиль основывается на непосредственной связи художника с природой, на изображении её изменений, игры света на открытом воздухе и других природных явлений в произведениях искусства. В пленэрном методе важен не только визуальный образ — также играет роль духовная и эмоциональная связь художника с природой. Ведущим элементом в пленэрной живописи являются естественный свет и изменяющиеся погодные условия, которые придают произведению особую живость и

создают у зрителя ощущение естественности. Основной смысл работы в пленэре - это непосредственный контакт художника с изображаемым объектом. То есть, если художник хочет изобразить природу, он должен выбрать её как место своей работы, наблюдать пейзаж, свет и цвета напрямую и переносить их на холст. Это отличает пленэрную живопись от традиционной, в которой художники, как правило, опираются на предварительные эскизы, воображение или память, работая в мастерской. Пленэр также предоставляет широкие возможности для импровизации. Внезапные изменения в природе, игра света и другие моменты позволяют художнику уловить сиюминутные ощущения. Такие произведения получаются более живыми и выразительными. Сегодня пленэрная живопись остаётся популярным видом деятельности как среди профессиональных художников, так и среди любителей. Работа на открытом воздухе положительно влияет не только на художественное мастерство, но и на связь художника с окружающей средой и природой.

**Ключевые слова**: *цвет, художник, композиция, природа, пленэр, образ.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 14.10.2025**
**Son daxilolma tarixi:12.11.2025**